

*Haqqında söhbət açdığımız mədəniyyət evi kifayət qədər məşhurdur. Məlumat üçün bildirək ki, musiqisevərlərin yaxşı tanıdığı Kəmalə Qubadlı, Mənzurə Musayeva, Ulduz Quliyeva və b. buranın yetirmələridir. Təsadüfi deyildir ki, mədəniyyət evinin fəaliyyəti ayrı-ayrı təşkilatlar tərəfindən yüksək qiymətləndirilib. Bu da kollektivi daha səylə çalışmağa ruhlandırıb.*

# Uğurlarımız çoxdur

Mədəni tədbirlərin səviyyəsini yüksəltmək üçün burada müxtəlif kurs, bədii kollektiv, dərnək və s. yaradılıb.

Bu gün mədəniyyət evi özündə «Pöhrə» aşıqlar ansamblını, «Dəcəl qızlar» rəqs qrupunu, instrumental ansamblı, bədii qiraət, vokal qrup, musiqi janrları üzrə kurs və s. birləşdirir.

Müsahibimiz N.Nərimanov adına Sumqayıt mədəniyyət evinin direktoru Telman Lazımovdur. Telman müəllim ADMİU-nun mədəni-maarif fakültəsinin məzunudur. 32 ildir ki, bu müəssisəyə rəhbərlik edir.

T.Lazımov mədəniyyət evinin cari ildəki fəaliyyətindən söhbət açır:

- 2007-ci il münasibətilə mədəniyyət evində təhsil alan uşaqlar üçün «Yeni il sevincləri» adlı karnaval keçirilib.

Qanlı 20 yanvar faciəsinə həsr olunmuş ədəbi kompozisiya «Ağlamağın yeri deyil, ağlama» adlanırdı. Tədbirdə Yanvar hadisələrinin dəhşətlərindən bir daha söz açılmış, şeirlər söylənilmiş, musiqi nömrələri səslənmişdir. Şəhidlər xiyabanına ziyarət təşkil edilmiş, şəhidlərin məzarları üstünə tər çiçək dəstələri qoyulmuşdur.

Mədəniyyət evində Xocalı soyqırımı ilə bağlı hər il olduğu kimi bu il də bir sıra tədbirlər keçirilmişdir. Kurs və dərnəklərdə soyqırımla bağlı söhbətlər aparılmış, mədəniyyət evinin foyesində «Xocalı faciəsi – əsrin qan yaddaşı» başlıqlı foto stend təşkil olunmuşdur. «Xalqımızın qan yaddaşı» adlı ədəbi-bədii kompozisiya keçirilmiş, ehsan süfrəsi açılmışdır.

Sumqayıt hadisələri ilə əlaqədar kurs və dərnəklərdə xüsusi dərslər keçirilmişdir. 8 Mart Qadınlar bayramı münasibətilə «Analara töhfəmiz» adlı bayram konserti keçirilmişdir. Konsertdə tanınmış müğənni Mənzurə Musayeva böyük konsert proqramı ilə çıxış etmişdir.

Mədəniyyət evində çalışan qadınlar üçün mavi işıq keçirilmişdir.

Dövlət xadimi, publisist, dramaturq, həkim N.Nərimanovun anadan olmasının növbəti ildönümü münasibətilə mərasim təşkil edilmişdir. Mərasimdən sonra ədibin abidəsi önünə çiçək dəstələri qoyulmuşdur.

Mədəniyyət evi saz sinfinin rəhbəri Elməddin Məmmədov Əli Bayramlıda keçirilən III Respublika simli alətlər müsabiqəsinin II turunda iştirak etmiş və diploma layiq görülmüşdür.

Mədəniyyət evinin musiqi kollektivləri N saylı hərbi hissənin təşkil olunmasının növbəti ildönümü münasibətilə rəngarəng konsert proqramı ilə çıxış ediblər.

Mərhum aşıq Bəkir Əhmədovun xatirəsinə həsr olunmuş gecə «Keçmiş xatirələrlə xatırla məni» adlanırdı. Tədbirdə Əli Kərim adına Poeziya klubunun direktoru İbrahim İlyaslı, şair Mədəd Məhbub, Qənirə Mehdixanlı, Nadir Azayoğlu, Aşıq Ulduz, Aşıq Ziraddin, Aşıq Mirzalı, Aşıq Cəmil, Aşıq Səbuhi və başqaları çıxış etmişlər.

Gənc reper Sərxan Dövran və meyxanaçı Kamil Aşiqin iştirakı ilə keçirilən konsertdə sevgiyə, dostluğa, zamana həsr olunmuş rep və meyxanalar səslənmiş, xalq rəqsləri, el havaları ifa olunmuşdur və s.

Bir jurnal yazısında görülən bütün tədbirlər haqqında ətraflı məlumat vermək təbii ki, qeyri-mümkündür. Bəlkə buna heç ehtiyac da yoxdur. Düşünürəm ki, biz yenə görüşəcək, keçirdiyimiz tədbirlərə sizi də dəvət edəcəyik. Çox istərdik ki, onların canlı şahidi olasınız.

**S.MAHMUDZADƏ**